# ÜZÜMÜ YARADANA TUTMUŞAM

## Bayrağım

Bayrağımda üç rəng var,
Göy, qırmızı və yaşıl.
Allahın yaratdığı,
üçü də Göyqurşağı.
Bu mənim azadlığım,
istiqlal bayrağımdır.
Günəş tək şölə saçan,
Sabahıma yol açan,
Şəhidlərin qanıyla
boyanan bayrağımdır.
Yatmış Şərqi yuxudan
oyadan bayrağımdır.
Dünyamıza səs salan,
Dəniz kimi çağlayan,
Fırtınalardan keçən,
Düşmənləri dağlayan,
Müstəqil bayrağımdır.
O bayrağın altında
Qurulubdur dövlətim.
O bayraqda birləşib
Mənim böyük millətim.
Xalqım şəhid olubdur,
O bayrağın altında.
Həyatını qoyubdur
O bayrağın uğrunda.
O bayraq yenilməzdir,
o bayraq əyilməzdir
Deyib dahi rəhbərim...
Mən öləndə ağlaman,
Tabutuma bükün siz.
Qoyun sinəmin üstə,
O bayrağı öpün siz...
Məzarımın üstündən
O bayrağı asın siz,
Mənim baş daşım olsun.
O üçrəngli bayrağım.
Yanan Günəşim olsun
O üçrəngli bayrağım.
O bayraq vətənimdir,
Oddan, alovdan çıxıb.
O bayraq həm sənindir,
O bayraq həm mənimdir.
Bütövləşən millətim,
Bunu demək çətindir.
Hələ neçə zəfərlər
O bayraqla keçəcək.
Mənim Göyçəm Təbrizim,
Borçalım, həm Dərbəndim,
Qarabağ kimi elim
O bayrağın altında
Vətənə birləşəcək.
O bayraqdan keçibdir
Bizim azadlığımız...
Bayrağa and içibdir
Döyüşə gedən oğullar.
Savaşlardan keçibdir,
Ruhu bayraq olanlar.
Bir bayraq göstərin siz,
Üçrəngli, Göyqurşağı,
Tanrımın o dərgahı...
Ona çox oxşar olsun,
Dursun ondan yuxarı...
28 may 1994-cü il.

Dərdimi kimə söyləyim?
Şair dostum Musa Ələkbərliyə
Yurdum yox, yuvam yox,
Sığınmağa obam yox.
Yetim qalmış,
tənha bir uşağam...
Çəkirəm qəribliyimi,
Yurd həsrətini içimdə.
Dağılmış,
Viran qalmış,
Oğulları qanına qəltan olmuş
Bir kəndimin faciəsi qalıb
gözlərimin dərinliyində.
Amma bir çoxları kimi,
Bu dünyanın dirikən
bir yoxları kimi
fırtınalar içində
yaşayıram mən də.
İçi möcüzələrlə dolu
nağıllar gəzişir ürəyimdə.
Havam çatmır nəfəs alım,
Dağılıbdır isti yuvam,
Nə danışım, ağrın alım?
Bir kəsim yox,
Haray salan bir səsim yox.
Qardaşım yox,
Dərd aşmağa
sirdaşım yox,
Daş üstünə daş qoymağa
bir daşım yox,
Havalanıb ağılım da.
Düz başım yox,
Baş qoyum yatım qardaş,
zamanı gələnə qədər...
İsti ocağımıza həsrət qalıb
gözlərim,
Getməyə bir yerim yox.
Əlim çatmır o ellərə,
o yerlərə.
Neyləyim ,
Bu bayram günü kimə söyüm,
Kimə qarğış edim,
Kimə alqış edim.
Siz deyin,
yol göstərin mənə, qardaş,
nə edim, hara gedim?..

Dərdi özlərindən böyük oldu -
atamın, anamın,
Getdilər son mənzilə qərib kimi...
Bundan ağır nə ola bilər?
Alovu-odu içimdə
Qalmışam çırpına-çırpına.
Bizi yalana aparan
Alovun-odun içində
Yanıram,yanram qardaş.
Tüstüm təpəmdən çıxır,
Görən gözlər kor olub.
Eşidilmir fəryadım,
qulaqlar da kar olub.
Quruyub bulaqlarım,
Quruyub dodaqlarım.
Sözüm dilimdə lal olub.
Qırılıb qəlbim qardaş,
Deyiləsi deyil dərdim qardaş...
**21.03. 2019.**

## Yaltaqlıq kişiyə yaraşmaz qardaş

Yaltaqlıq kişiyə yaraşmaz qardaş,
Kişilər sözünün ağası olub.
Nadanın əlləri qırılaydı kaş,
Onlar kişiləri arxadan vurub.

Hər sözü danışma nadan yanında,
Namərd əlləriylə qurar tələni.
Sözünü sən danış adam yanında,
Düşmən gülləsindən qoruyar səni.

Biz əsrlər boyu olmuşuq belə,
Arxadan vurulub babalarımız.
Satqın, yaltaqların çirkin əliylə,
Yağıya verilib torpaqlarımız.

Dünən də beləydi, bu gündə belə,
Şeytan əməliylə günahlara bax.
Verilib düşmənə göz görə-görə,
İrəvan, Təbiriz, bu gün Qarabağ.

Sol əlim sağ ələ niyə qənimdi?!
İsidən qəlblərə yol salmırıq biz.
Bu vətən nə qədər şəhid veribdi,
O qanlı tarixdən dərs almırıq biz.
**6 mart 2019-cu il**

## Xocalını qan gölündə görəndə

Göz yaşları quruyarmı görəsən
Xocalını qan gölündə görəndə.
Laləzara bürünərmi çöl-çəmən,
Xocalını qan gölündə görəndə.

Sağalarmı sinəmizdə yaralar,
Silinərmi bu ləkələr, qaralar.
Əsl insan, ona baxsa kor olar
Xocalını qan gölündə görəndə.

Əgər varsa yeri, göyü yaradan,
Niyə susur, gözün yumur oradan?
Götürməyir qansızları aradan
Xocalını qan gölündə görəndə.

Qanlı Yanvar olmadımı bizə dərs,
Kükrəmirik, hayqırmırıq biz əbəs.
Fikirləşir, nə düşünür görən kəs
Xocalını qan gölündə görəndə.

Sözün dedi, düşmən qəti, şər qəti,
Tapdalandı bir millətin qeyrəti.
Dillənmədi Məhəmmədin hümməti
Xocalını qan gölündə görəndə.

Vətən, torpaq haray çəkir, salır səs,
Bizdən gəlmir bir hənirti, bir nəfəs.
Oğullar da belə yerdə susar bəs
Xocalını qan gölündə görəndə?
**Ağdam - 27.02.1992-ci il.**

## Topxana meşəsi...

O vaxtdan başladı münaqişələr,
Baş verdi ölkədə gör nələr... nələr.
Topxana meşədə armud ağacın
Qəsdinə durmuşdu mənfur düşmənlər.

Qarabağı çapıb talayırdılar,
Xankəndi olmuşdu daşnaq yuvası.
Yadlar ocaqların qalayırdılar,
Başladı açıqca düşmən davası.

Beləcə susurdu ölkə rəhbəri,
Başımız altına balış qoyurdu.
Xalqdan gizlədirdi görün nələri,
Düşmən zəbt edirdi torpağı, yurdu .
Bu qara xəbəri eşitdi xalqım,
Nəhəng bir dövlətə etiraz etdi.
Əlində üçrəngli qazi bayrağım,
"Azadlıq" adlanan meydana getdi.

Millət haqq səsini ucaltdı göyə,
Kar olmuş məmurlar eşitməyirdi.
"İstefa","azadlıq" şüarlarıyla
Millət haqq sözünü bəyan edirdi.

Mitinqlər başladı, bil həmin gündən,
Millətim birləşib bir yumruq oldu.
Vətən sevgisindən, məhəbbətindən
Azadlıq alovu dalğalanırdı.

Oğullar sinəsin verdi qabağa,
Köləlik zəncirin qırıb, atırdı.
Müstəqil olmalı ölkəmiz daha,
Xalqım azadlığın yolun tapırdı.

Azərbaycan adlı məmləkətimdə
Azadlığın ilk məşəli yanırdı.
Xalqımın qırılmaz iradəsində
Bir vətən sevgisi alovlanırdı..

Yolunda qan tökdük, biz şəhid verdik,
Bizi şər qüvvələr susdurammadı.
Topxana meşəsi, armud ağacı,
Mənim azadlığım səndən başladı.

## Kimə deyim dərdimi?

Zalımlaşıb bu düya,
Güclüyə meydan verib.
Xeyiri şərə çevirən
Amansız şeytan verib.

Düşmən alıb yurdumu,
Məni vətəndən etdi.
Dağlara həsrət qoyub,
Dumandan, çəndən etdi.

Kimə deyim dərdimi?!
ATƏT məndən yan gedir.
Durmur başları üstə
Liderlər piyan gedir.

Nə əcəbə işdi bu,
Tora düşən biz olduq.
İşğal edən yurdumu,
Düşmənlə əlbir olduq.

## Söy məni

Haqq dedim, dilim kəsildi,
Əl tutdum, əlim kəsildi.
Oğlum, qızım əsirdi,
Yenə günahkar mən qaldım.

Sərvət istədi, sərvəti verdim,
Şərbət istədi, şərbəti verdum,
Dövlət istədi, dövləti verdim,
Dəyənək "mükafat" aldım.

Söy məni, haqqın var, söyməyə,
Döy məni, haqqın var, döyməyə,
Əy məni, haqqın var, əyməyə,
Mən, özgə havanı çaldım.

## Yuxuma girmişdi

Bir az oturub dincəlmək istədim,
Altımdan çəkdilər palıd kötüyün.
Özümlə dərdimi bölmək istədim,
Vuruldu ömrümə açılmaz düyün.

Bölüşmək istərkən fikirlərmi,
Kəsildi əllərim dizmin üstə.
Sən açmaq istərkən öz gözlərini,
Mən isə göründüm quru qəfəsdə.

Taleyin yuxuma girmişdi mənim,
Bəxtimin qapısı paslı qıfıl var...
Çəkilmək bilmirdi dumanım, çənim,
İçində itmişdi bitmiş arzular.

Əllərim, qollarım, ayağım bağlı,
Başımı qoydular kötüyün üstə.
Ətrafda hamını ölü görürdüm,
Edam edilirdim düz sözün üstə.

## Mən yuvasız bir quşam...

Mən yuvasız bir quşam,
Qonmağa bir yuvam yox.
Hər dərdə alışmışam,
Qalmağa bir komam yox.

Yurduma çatmır əlim,
Dağlardan çox uzağam.
Hər yedə qısa dilim,
Yamaqçıya yamağam.

Dağılıb elim-obam,
Dağılmış yuvam kimi.
Haraylayam, çağıram,
Bu haraya mən kimi...

Harda qurum mən yuva?
İsti ocağım olsun.
Yana... ürəyim sığa,
Açan qucağım olsun!

Ünvanıma yazılsın,
O deyilən sözlərim.
Qürbət yoldan çəkilsin,
Mənim həsrət gözlərim.
**22.12. 2018.**

## Sənin o gözlərin...

Sən demə yaş ötüb, qırışıb üzüm,
Sənin o gözlərin həmin gözlərdir.
Xallar yanağında hey düzüm-düzüm,
Sənin o gözlərin həmin gözlərdir.

Birliyant bir qaşdır, ləldir alışır,
Ulduz tək göz vurur, necə sayrışır,
Baxanda fikirim, ağılım çaşır,
Sənin o gözlərin həmin gözlərdir.

Yadıma salıram xatirələri,
Həmişə cənginə alardı məni,
İlantək gözümdən çalardı məni,
Sənin o gözlərin həmin gözlərdir.

Soyuğu,istisi içimdən keçib,
Özündə əks edib, şəklimi çəkib.
Kipriyi barmaq tək tətiyi çəkib,
Sənin o gözlərin həmin gözlərdir.

Sapındıb, yolumdan məni çıxartma,
Zalımlıq eyləyib yandırıb, yaxma.
Mənə əyri-əyri , çəpəgi baxma,
Sənin o gözlərin həmin gözlərdir.

Qalıb cavanlığın olduğu kimi,
Qoruyub, saxlayıb hərarətini.
Qaytarıb özümə məhəbbətimi,
Sənin o gözlərin həmin gözlərdir.
**01.12.2018.**

## Buraxın, mən gedim..

Nə günə qalmısan, ay qoca dünya,
Zalım qəh-qəh çəkir, məzlum göz yaşı.
Bir tərpən silkələn, qol ac,sən oyna,
Başıma ələnir min nadan daşı.

Aynada hər iki üzünə bir bax,
İblislər çoxalıb, şeytan baş qatır.
Hanı mərhəmətli dediyin Allah?!
Ədalət torpağın altında yatır.

Üzümə dəysə də Günəş işığı,
Ümüdüm qalmayıb sabaha çıxım.
Haqsız danışırsa o haqq aşığı,
Hansı insanlığın əlini sıxım.

Mənə dəyən dəyib, olan olubdu,
Atılan daşlardan özünü qoru.
"Cənnət anaların ayağı altda",
Buraxın... mən gedim anama doğru.

## Elədi

Kəsilsin o kəsin başı,
Bizi bizdən elədi.
İtirdik qohum-qardaşı,
Bizi cırtdan elədi.

Yas içində bağça-bağım,
Quruyubdu yaşıl tağım,
Hanı Güney, Qaramanım?
Bizi yurddan elədi.

Tapdalandı qeyrət-arım,
Talanıbdır sərvət, varım,
Sayı yoxdur məzarların,
Bizi xortdan elədi.

Dərdimizi kimə açaq,
Daşıyırıq qucaq- qucaq,
El-obada sönüb ocaq,
Bizi oddan elədi.

Lənət sənə dəli şeytan,
Gör kimlərə verdin meydan,
Cəlladların gözündə qan,
Bizi soxdan elədi.
**29.11. 2018.**

## Sözün üstə...

Dağlar gedib kürəyimdən,
Bükülübdür belim mənim.
Ağrı tutub ürəyimdən,
Harda qalıb elim mənim?

Daha gəlmir yurddan soraq,
Ömür gedib varaq-varaq.
Artıq sönüb yanan çıraq,
Niyə qalxmır əlim mənim!

Tək qalmışam yanı üstə,
Can verirəm canı üstə.
Doğru sözün, haqqın üstə,
Kəsilibdir dilim mənim.
**23.11.08.**

## Adam gördüm…

Adam gördüm dilənirdi,
Qəpik üçün sülənirdi,
Dedilər yazıqdır, ölməsin,
İnsafı olanlar əlindən tutdu.
Sonra şansı gətirdi,
Keçdi vəzifəyə o.
Dönüb əfi liana
Keçmişini unutdu.
**14.01. 2019.**

## Nəsimi

Neçə Nəsimi soyuldu,
Hər dəridən bir Nəsimi çıxdı.
Getdilər Tanrı dərgahına,
Orada Nəsimi əllərin sıxdı.
Sonra üzünü Yaradana tutub dedi:
-Ey Qibləgahım,
-Ey Allahım!
Bunlar kafirlərə,
işğalçılara qarşı çıxan,
haqq məndədir,
mənəm haqq,
deyən Nəsimilərdir.
Sənə ibadət edən,
iman gətirənlərdir...
Tanrı yer göstərib,
O cənnət-məkan sizindir,
Mələklərindir, dedi:
Buna Nəsimi əmindi.
Qır qazanında yanır
dediyiniz o kafirlər indi...
**16.01.2019.**

## Mən bilirdim

Mən bilirdim,
Sən öləcəksən,
Məni tək qoyub gedəcəksən.
Sən torpağın altında çürüyüb
torpaq olcaqsan,
Çiçəyə, gülə dönəcəksən!
Mən yerin üstündə sənsizlikdən
gilə-gilə əriyəcəm,
Bir damla göz yaşına çevrilib,
sonra da buxarlanıb yox olacam.
**2019**



*Qələndər XAÇINÇAYLI*